# Ayaqqabı

*Hekayə*



■ Şəfiqə Şəfa



**Hərə bir geyimə aludə olur. Mən də beləyəm, amma aludəçi deyiləm, əməlli-başlı ayaqqabı xəstəsiyəm. Düzdü, davamlı "müalicə"lər nəticəsində bu kəskin, ağrılı "xəstəlik"dən yavaş-yavaş qurtulmaq üzrəyəm, amma yenə də arasıra xəstəliyin əlamətləri özünü göstərir. Əksər ağır xəstəliklər kimi bu mərəz də bir gündə yaranmayıb, altdan-altdan, hiyləgərcəsinə, özünü hiss etdirmədən illərlə zəmin yaradıb.**

Zəmin isə bütün dərdlərin mənbəyi olan kasıblıq, məhrumiyyət, tamarzı qalmaqla illər boyu gözünü doyurub. Ağlım kəsəndən ayaqqabıdan çilə çəkmişəm. Mənim uşaqlığım Qarabağ müharibəsinin kəskin vaxtlarına düşüb. Üstəlik, başqa nəsillərin 50-60 ilə gördüyü tarixi hadisələri bizim dövrün uşaqları on ildən az müddətdə bir arada gördü. SSRİ-ni dağıldı, müstəqil olduq, müharibəyə sinə gərdik, nə faciələri yaşadıq. Ona görə də 90-cı illərin məhrumiyyəti elnən gələn bəla idi. Kasıblıq ayıb sayılmırdı. Amma di gəl böyüməkdə olan qızlara bunu başa sal. Biixtiyar, yaş dövrü, qadın cinsinin geyim-keçim həvəsi məhrumiyyətlə barışmaq istəmir. Geyim, aksessuar kasadlığını xanımlar özləri düzəldirdi. O dövrün yeniyetmə və gəncləri yaxşı xatırlayarlar: qızlar bəzəkli düymələrin saplıq hissəsini qoparıb, fırça daraqların dəmir iynəciklərini qızdırıb ora yapışdırardılar, qulağa keçirib arxasını da pozanla bərkidərdilər, bu da sənə sırğa! Hələ bu nədi? Rəngli məftillərin simləri çıxarılardı, üst hissəsi xırda-xırda doğranıb ipə keçirilərdi, sonra da qat-qat eləyib boyunlarından asardılar. Yəni gözəllik, geyinmək istəyi hər şərtlərdə mümkündü.

Təəssüf ki, özümüz ayaqqabı tikə bilmirdik, ya almalı, ya da ustaya tikdirməliydik, amma buna da pul lazım idi axı... Hələ də gözümün önündədi cırıq ayaqqabılarımızın burunları, elə bil sahilə düşmüş akula kimi ağızları açıq halda ölmüşdülər. Bir ayaqqabıya nə qədər yamaq, tikiş vurarlar?.. Axırda usta da qəbul eləmirdi, deyirdi bunun tikməyə yeri qalmayıb. Hələ dermantin ayaqqabılar vardı, alandan bir həftə sonra qarpız kimi partlayırdı. Elə bil ayaqqabı da zamanın kasadlığını anlayırdı nədi, lap camaatın üzünə dirənmişdi. Belə baxanda indi də ucuz, keyfiyyətsiz materiallı ayaqqabılar var, amma ən az bir sezonu başa vurur. O zamanın məhsulları da özü kimi zay çıxmışdı.

Yuxularımda gözəl, rəngarəng ayaqqabılar görərdim, ayılıb dərsə gedəndə isə yaralı "akula"mı birtəhər məktəbə sürüyərdim. "Sənaye malları" deyilən mağazalar olurdu, hər ikiüç məhəlləyə biri düşərdi. İndiki marketlər kimi qarışıq mallar satılırdı, daha doğrusu, satılması üçün nəzərdə tutulmuşdu, amma rəflərin çoxu boş idi. Məhəlləyə xəbər yayıldı ki, 10-13 yaşlı qızlar üçün təzə səndəllər gəlib. Böyük bacımla özümüzü mağazaya yetirdik. Ayaqqabıları görən kimi aşiq oldum: üstü gümüşü parçalarla çarpaz zolaqlı səndəllər o zamana qədər gördüyüm ən gözəl ayaqqabılar idi. Bir həftədən sonra məktəbin akt zalında tədbir olacaqdı, mən də öz şeirimi səsləndirəcəkdim. Gözümün önündə ağ corablarla geyindiyim gümüşü ayaqqabıları canlandırdım, lap gümüşü ay kimi səhnəyə işıq salacaqdım.

Gerçəkliyə qayıdanda isə dərhal kədər məni bürüdü, anam mənə təzəlikcə çanta almışdı, deməli, ayaqqabı alınmayacaqdı. Bacımla baxışdıq, tez evə qayıdıb gündəlik xərclərimizdən yığılan pulları (xərc deyərkən, bir bulkalıq və ya iki peraşkilik pul olurdu) bir araya qoyduq. Bacılığa yaxşı pul yığmaq qabiliyyətimiz var, qənaət edib həmişə pul yığmışıq. O vaxt da evdən pendir-çörək aparardıq, bəzən isə ümumiyyətlə ac qalardıq ki, o qəpikləri yığa bilək. Əməlli-başlı pul yığılıbmış. Amma yenə də ayaqqabının pulu düzəlmirdi. Sonra bacım məndən xəbərsiz yaxşı imkanı olan rəfiqəsindən borc istəmişdi. Evə gələndə əlində qutuyla birbaşa yataq otağımıza keçdi. Bir söz demədən qutunu açdı. Gümüşü ayaqqabılar qutunun içindən üzümə gülümsədi. O an... dünyada məndən xoşbəxti varmıydı, görəsən!..

Bir həftə sonra xəyalımı gerçəkləşdirdim, ağ corablarla ayaqqabılarımı geyinib səhnəyə çıxdım. Ağzınacan dolu akt zalında kütlə qarşısındakı həyəcandan çox, təzə, par-par parıldayan ayaqqabılarımın həyəcanından boğula-boğula şeirimi söylədim. Alqışların müşayiəti ilə səhnədən dönüb çıxmaq istərkən ayaqqabının gümüşü lenti qırılıb qopdu. İnana bilmirdim. Yolun ortasındaca donub qalmışdım. Birtəhər ayaqlarımı sürüyə-sürüyə səhnəni tərk etdim. (O vaxtdan hər səhnəyə çıxanda şüuraltı qorxu məni narahat eləyir, birdən ayaqqabım qopub məni utandırar) Məktəbimizin xadiməsindən götürdüyüm şəpiklərlə evə qayıtdım. O gecə xəyanətkar ayaqqabılara baxa-baxa səhərə qədər ağladım.

Sonra İrandan ucuz mallar ölkəyə daşınmağa başladı, ən azından camaat əyin-başını düzəldə bilirdi. Artıq 15 yaşlı yeniyetmə qız idim. Yəni qızların üst-başına görə daha çox utandıqları bir yaşda... Hamı Cəlilabaddakı İran bazarına gedib uşaqlarına, özlərinə əyin-baş alardı. Sentyabra az qalmışdı, anam məktəbli bazarı üçün Cəlilabada getdi, mənə yeni dərs ili üçün təzə ayaqqabılar alacaqdı. Axşam yorğun ilə evə qayıdanda cəmi bir neçə qutuluq bazarlığının içində üstündə ayaqqabı rəsmi olan qutunu qamarladım. Sevincək ağzını açıb, qəhvəyi ayaqqabıları çıxartdım. Birini ayağıma keçirib, o birisini də geyinmək istəyəndə... hər iki ayaqqabı tayının bir ayaq üçün olduğunu gördüm: ikisi də sağ ayaq üçün idi. Aran rayonunun qızmar günəşindən halbahal olmuş anam bilmədən ayaqqabı taylarını qarışdırmışdı... Gözümü yandıran isti yaş damlası axdı...

Ta soyuqlar düşənə qədər taykeş ayaqqabıları geyinməli oldum: utanautana, bir ayağımı gizlədə-gizlədə. O yaşda uşaqlar qəddar olurlar, bir-birlərinin paxırını açmağa, lağ eləməyə hər an hazırdılar. Neçə ay mənə lağ elədilər. Mənim kimi dilli-dilavər, bir deyənə beş cavab verən bir uşaq dilsiz quzuya dönmüşdüm. Mən də hirsimi anamla həftələrlə küsülü qalmaqla çıxardırdım. Niyə axı məhz mənim ayaqqabımı qarışıq salmışdı?! Sonralar anamla barışsam da içimdəki inciklik hələ də qalmışdı. Yəni əlimə pul gələn vaxtlarda. Hər ad günündə anama ayaqqabı alardım, qutudan ayaqqabıları çıxarıb qarşısında dinməzcə cütləyərdim. Amma bu susqunluğum ən zalım cümləni qurardı, yəni "bax, mən sənə ayaqqabını taykeş almamışam". İndi düşünəndə xəcalət çəkirəm.

Bundan iki il sonra universitetə qəbul oldum. Bir insanın həyatının yeni mərhələsini, gələcəyini təyin edəcək xoşbəxtliyini yaşayırdım. Atamla gedib pal-paltar aldıq. Artıq dolanışıq da nisbətən düzəlmişdi, bazarlar da dolmağa başlamışdı. Parlaq, qara rəngli hündürdaban ayaqqabı aldıq. Bütün yolu qutunu qucağımda daşıdım, elə bil əlimdən yerə qoysaydım, kimsə götürüb qaçacaqdı. Kaş elə qorxduğum kimi olardı. Sentyabrın ilk günü təzə donumu, ayaqqabımı geyinib universitetə getdim. Yeni həyat, yeni dostlar... Bəziləri məktəbdən yoldaşlarım idi. Humanitar təmayüllü liseyi bitirdiyimizdən əksəriyyətimiz eyni təhsil ocaqlarına qəbul olunmuşduq. Dərsdən sonra deyə-gülə evə qayıdırdıq. Yeraltı keçiddə qəfil hiss etdim ki, ayağımın biri digərindən daha da qısalıb. Anlaya bilmədim, çuxura düşdüyümü zənn etdim. İkinci, üçüncü addımı atıb hamar səthdə də eyni şeyin təkrarlandığını hiss etdim. Əyilib ayağıma baxanda tuflinin bir dabanının yerli-dibli qopduğunu gördüm. Bu necə qopmaq idi?! Heç olmasa daban qırılanda ayaq burxular, ayaqqabıdan sallanıb qalar... Bu elə dinməzcə qopmuşdu ki, ayağımı yerə basmayınca heç hiss də etməyəcəkdim.

- Ay qızım, bu səndən düşdü?

Dönüb arxama baxdım, yaşlı bir kişi əlində qara ayaqqabı dabanı ilə üç-dörd addımlığımda dayanmışdı. Dilucu təşəkkür edib dabanı aldım. Üzümü tələbə yoldaşlarıma çevirərək quruyub qaldım. Aydın məsələ idi ki, təkdabanlı yeriyə bilməyəcəkdim. Aramızda qızlardan birinin böyük qardaşı da vardı. Yaxınlaşıb:

- Salamat ayaqqabını ver görüm, - dedi.

Nə edəcəyini təxmin belə etmədən mütiəsinə ayaqqabını ona verdim. O isə qəzəblə digər ayaqqabının da dabanını qopararaq dodağının altında mızıldandı:

- Bunun adı tərslik deyil, alcaqlıqdı.... Heç olmasa bu gün qırılmayaydın, ay zalım.

Dabanı qırmasına deyil, onun qurduğu cümləyə təəccübləndim. Deməli, bu cür düşünməkdə haqlıymışam, cansız əşyalara da canlıymış kimi baxan tək mən deyilmişəm...

Üzülməyim deyə qızlardan biri zarafat elədi.

- Kefini pozma, elə fikirləş ki, reklamdakı qızsan.

O illərdə bir reklam vardı. Gənc və gözəl qadın xoşbəxtcəsinə yol gedərkən ayaqqabısının dabanı qırılır, o isə heç nə olmamış kimi kişilərin heyran baxışları altında digər dabanı da qırıb yoluna davam edir.

Bitdimi? Ayaqqabılarım özünə üzüyola qurban tapmışkən bir də niyə yeni "qəhrəman" axtarsın ki? 2000-ci il... Soyuq noyabr ayının o qorxunc günü - zəlzələnin baş verdiyi gün. Yaxşı yadımdadır, seriala baxırdıq. Bir gözüm televizorda, o biri gözüm vərəqlədiyim jurnalda idi. Anam yorğun iş günündən sonra ayaqlarını ləyəndə suya qoyub, təzəcə qurulamaq üçün çıxarmışdı. Və... o məşum an! Əvvəlcə ekranda zolaqlar göründü, sonra televizor yerindən oynadı. Karıxmış kimi bir-birimizə baxarkən başımızın üstündə yellənən çılçıraq vəziyyəti bizə izah elədi. Zəlzələ! Bu günə qədər zəlzələnin nə olduğunu yalnız başqa ölkələrdə, o da televizordan gördüyümüz halda, indi özümüz qırcanıb qamətini düzəldən torpağın əsarətində titrəyirdik. Bir anda özümüzü bayıra atdıq. Blokda qadın-uşaq fəryadı, kişi bağırtısı aləmi götürmüşdü. Doqquz mərtəbəli binalardan ibarət məhəllənin ümumi həyəti qısa müddətdə izdihamla uğuldadı. Ayağımızın altından qaçan torpağın çatlarından buxar yayılırdı. Buxarın fonunda üzük qaşı kimi bizi əhatələmiş binalara qorxa-qorxa baxdıq. Guya canımızı qurtarmışdıq, bu binalardan biri uçsaydı, o birilər də domino daşları kimi aşacaqdı. Amma təhlükə sovuşdu, zəlzələ qısamüddətli oldu. Handan-hana dəhşətdən sifətləri əyilmiş insanlara göz gəzdirəndə anamın bir ayağını götürüb, o birini qoyduğunu gördüm. Həyəcanını beləmi yatışdırırdı? Qadını başdan-ayağa süzəndə səbəbini anladım: soyuq noyabr gecəsində, buz kimi asfaltın üzərində anam ayaqyalın idi! Axı zəlzələdən bir dəqiqə qabaq ayaqlarını yuyurdu!.. Onun donan ayaqlarına baxa-baxa bütün bədənim donub yerə yapışdı. Bu azmış kimi anamın üzünü qonşulara tutub verdiyi sualdan dəhşətə gəldim. Bu, indiyədək eşitdiyim ən çarəsiz sual idi. Cavabının "yox" olacağını biləbilə verilmiş aciz, can hayında olan sual:

- Ay qonşular, bəlkə sizdə artıq ayaqqabı ola?..

Başlar bulandı, çiyinlər çəkildi, təəssüf dolu gözlər anamın barmaqları büzüşmüş, titrəyən ayaqlarına yönəldi. Axı kim özüylə artıq ayaqqabı gəzdirir ki! Bu dəfə zəlzələ mənim içimdə baş verdi, silkələyib məni ayıltdı. Tez yun corablarımı çıxardıb anama verdim. Mənim ayağımda heç olmasa, ev şəpiyi vardı. Anam əlləri əsə-əsə corabın bir tayını geyinəndə səbrim çatmadı, tez əyilib o birini də mən geyindirdim. Və bir an tərəddüd etmədən dönüb binanın blokuna tərəf qaçdım. Arxadan anamın qışqırıb məni haylamasına, qonşu arvadların bağırtılarına məhəl qoymadan, üçüncü mərtəbəyə qədər birnəfəsə qalxdım. Elə dördüncüyə qalxırdım ki, zəlzələnin ikinci, daha güclü təkanı baş verdi. Dizi üstə pillələrin üstünə yıxıldım. Üstümə tökülən suvaqlardan, bəlkə daha betərindən qorunmaq üçün başımı çiyinlərimə qısıb, pilləkənin məhəccərindən möhkəm yapışdım. Sanki bina uçanda məni qoruyan bu dəmir şəbəkə olacaqdı. Dilimdən çıxan aha qarışmış tək bir söz oldu: "Allaaaah!!!"

...Özümü topladım. Silkələnmə də kəsilmişdi. Tez ayağa sıçrayıb iki mərtəbəni də qalxdım. Bina silkələnəndə məzillərin bayır qapısı yellənib açılmışdı. Özümü tez evə atıb qapıdaca paltomu geyindim, yalın ayaqlarıma uzunboğaz çəkmələrimi keçirtdim, anamın paltosunu və ayaqqabılarını qamarlayıb özümü tələsik pilləkənə atanda bir anlıq duruxdum. Bəlkə aşağıda hansısa qonşunun ayaqqabıya ehtiyacı vardı?! Evə qayıtdım: "Qonşular, bəlkə sizdə artıq ayaqqabı ola?.." sualı bir daha çarəsiz cavablanmasın deyə şkafdan daha bir ayaqqabı çıxartdım...